Xüsusi istedadlı uşaqlarla işin təşkili istiqamətində səmərəliliyin artırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli 2242 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 5.5.10-cu yarımbəndini rəhbər tutaraq **əmr edirəm:**

1. Azərbaycan Respublikasının Təhsil İnstitutu (Elnur Əliyev) 2025/2026-cı tədris ili üzrə lisey və gimnaziyaların V-VIII siniflərinə şagird qəbulunu mərkəzləşdirilmiş qaydada təşkil edilən imtahan əsasında həyata keçirsin (siyahı əlavə olunur).

2. 2026/2027-ci tədris ilindən etibarən lisey və gimnaziyaların yalnız VII siniflərinə şagird qəbulunun aparılacağı nəzərə alınsın.

3. Azərbaycan Respublikasının Təhsil İnstitutu (Elnur Əliyev), Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi (Eşqi Bağırov) 1-ci və 2-ci bəndin tələblərindən irəli gələn vəzifələrin icrasını təmin etsinlər.

4. İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsi (Səbuhi Rzayev) əmrin "Azərbaycan müəllimi" qəzetində dərc edilməsini və Elm və Təhsil Nazirliyinin internet səhifəsində paylaşılmasını təmin etsin.

5. Əmrin icrasına nəzarət nazir müavini Həsən Həsənliyə həvalə edilsin.

Əsas: Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 04.03.2025-ci il tarixli 329/3-2-107F/2025 qeydiyyat nömrəli əmri.

***Emin ƏMRULLAYEV,***
***Azərbaycan Respublikasının elm və təhsil naziri***
***21 iyun 2025-ci il***
***3-29/3-2-366F/2025***